**T.H.ƏLİSOY**
*doktorant*
:https://orcid.org/0000-0001-9937-539X

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
(Bakı şəh., A.Cəlilov küç., 86)

*təlim-tərbiyə işləri üzrə direktor müavini*
*e-mail: aliyevatarana143@gmail.com*
**Bakı şəhəri 67 nömrəli tam orta məktəbi**
(Bakı şəh., N.Məlikov küç., 7)

10.62021/0026-0028.2024.4.228

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ İNTELLEKT İLƏ YARADICILIQ ARASINDAKI ƏLAQƏLƏR

***Xülasə.*** *Məqalədə intellekt və yaradıcılıq anlayışları haqqında məlumat verilmiş, onların mahiyyəti izah edilmişdir. Nəzəri baxımdan intellekt və kreativlik arasında həm ortaq, həm də fərqli cəhətlər araşdırılmışdır. Bəzi nəzəriyyələr kreativliyi intellektin tərkib hissəsi kimi dəyərləndirdiyi halda, bəziləri kreativliyi müstəqil bir bacarıq olaraq görür. Hətta intellektin yaradıcılığın tərkib hissəsi olduğunu (və ya tərsinə) qeyd edən tədqiqatçılar da var. Bu sahədə aparılan araşdırmalara diqqət çəkməklə yanaşı, biz də problemlə bağlı kiçik bir araşdırma apardıq. Məhdud sayda şagird qrupunda (1 sinif) həm intellekt, həm də kreativlik testi keçirməklə nəticələri müqayisə etdik. Aparılan tədqiqatın nəticələri də məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *intellekt, yaradıcılıq, kreativ düşüncə, şəxsiyyət, problem həll etmə*

## Giriş

Qədim zamanlardan bəri insanların fərqli qabiliyyətlərə, özəlliklərə sahib olması və hətta bu qabiliyyətlərin ölçülməsi məsələsi diqqəti cəlb etmişdir. İntellekt və yaradıcılıq haqqında elmi araşdırmalar isə XX əsrin əvvəllərindən etibarən başlanmışdır. Azərbaycanda isə XX əsrin sonlarında təhsil konsepsiyası şagirdlərdə təfəkkürün inkişaf etdirilməsi, XXI əsrin əvvəllərində isə yaradıcılıq problemi formalaşmağa başladı. Professor Əbdül Əlizadə bu problemi – təhsil konsepsiyasında yeni bir mərhələ – təxəyyülün inkişafı mərhələsi adlandırdı. Çünki tədris prosesində keçirilən müasir dərsin məzmununda koqnitiv proseslərlə yanaşı kreativ və yaradıclıq prosesləri də təzahür etməyə başlamışdır [1, s.163].

Bu gün Google axtarış motorunda “intelligence-creativity” başlığı ilə axtarış etdiyimiz zaman təxminən 623 milyon nəticə görünür. Yaradıcılıq (kreativlik) fərdlərin problemləri yeni yollarla həll etmək bacarığını, intellekt isə insanın öyrənmə, anlama, analizetmə və s. kimi potensialını təmsil edir. Ona görə də hər ikisi tədris prosesində olduqca əhəmiyyətlidir.

Bu sahədə aparılan tədqiqatlar hər nə qədər çox olsa da, problemlə bağlı yanaşmalar, nəzəriyyələr fərqlidir. Yaradıcılıq və intellekt arasında hansı əlaqələr mövcuddur? Bu qabiliyyətlərin inkişafı necə baş verir? Araşdırma prosesində bu baxımdan mövzunun nəzəri əsaslarına, fərqli psixoloji yanaşmalara və müxtəlif tədqiqat nəticələrinə nəzər salmağı məqsədəuyğun hesab etdik.

Amerika psixoloqu D.Vekslerə görə: “intellekt ağıl, düşüncə, məntiqi iş və effektiv davranış deməkdir” [7].

Yaradıcılıq insanın daxili ziddiyyətləri və enerjisi cəmiyyətin qəbul etdiyi məhsula çevrildikdə baş verir. Koqnitiv yanaşmaya görə yaradıcılıq informasiyanı təşkil etməkdə səlislik, problemin həllində çeviklik və hər iki halda yaradılan məhsulda orijinallıqdır. Gestalt yanaş-

masına görə, yaradıcılıq unikal problemə alternativ həll yolları tapan və uyğunlaşdıra bilən düşüncədir [5, s.88].

***Kreativlik və intellekt arasındakı nəzəri əlaqələr.***

Amerika psixoloqu Robert J.Sternberq üçtərəfli intellekt nəzəriyyəsini təklif etmişdir. Sternberqə görə, intellekt üç istiqamətdə inkişaf etməlidir:

✓ Analitik-insan aldığı informasiyanı analiz etməyi, müqayisə etməyi, qiymətləndirməyi bacarmalıdır;

✓ Kreativ (yaradıcı) insan yeni ideyalar verməyi, problemlərin yeni həllini tapmağı, fərz etməyi, kəşf etməyi bacarmalıdır;

✓ Praktik insan nəzəriyyələri tətbiq etməyi, öyrəndiklərindən praktik olaraq istifadə etməyi bilməlidir [4, s. 74].

Guilford zəka ilə yaradıcılıq arasındakı əlaqənin idrak qabiliyyətinin müxtəlif səviyyələrində dəyişə biləcəyini ilk kəşf edənlərdən biri idi. O, belə nəticəyə gəlmişdir ki, yüksək İQ kreativlik üçün kifayət şərt olmasa da, demək olar ki, zəruri şərtdir".

Şəxsiyyətin yaradıcı performans nümayiş etdirmək üçün ən azı orta səviyyəli intellektə malik olması nəzərdə tutulur. Başqa sözlə, yaradıcı insan problemi müəyyən edə bilmək, uyğunsuzluğu ayırd etmək, uyğunlaşdırmaq, birləşdirmək və orijinal həll yolu tapmaq bacarıqlarına malik olmalıdır. Məsələn, Əbdül Əlizadənin fikrincə, təxəyyül nə qədər güclü olarsa, insanlar başqa insanları, təbiət və cəmiyyət hadisələrini daha yaxşı anlayırlar [1, s. 164].

Üstün zəka və yaradıcılıq münasibətlərinin araşdırıldığı müxtəlif tədqiqatlar da mövcuddur. Hamivənd Tehranda 60 şagird ilə apardığı eksperimentdə üstün zəkalı şagirdlərin zəka göstəricisi ilə yaradıcılıqları arasında aşağı səviyyədə və əhəmiyyətli bir əlaqə müəyyən etmişdir. Virgolimin Brazilyada üstün zəkalı və ya üstün qabiliyyətli olaraq tanınmış tələbələr üzərində apardığı araşdırmada da aşağı səviyyədə, lakin anlamlı bir əlaqə ortaya çıxmışdır.

Türkiyədə isə Feyzullah Şahinin apardığı bir araşdırmaya əsasən zəka və yaradıcılıq potensiallarının paralel səviyyədə artmadığı aşkar edilmişdir. Belə ki, 87-129 İQ aralığında yer alan şəxslərin zəka və yaradıcılıq qabiliyyətləri arasında bir qədər əlaqə olduğu halda, 130 İQ və daha yüksək zəkaya sahib şəxslərdə əhəmiyyətli dərəcədə əlaqə müəyyən olunmamışdır [6].

Ümumiyyətlə, kreativlik və intellekt arasındakı əlaqə bir sıra nəzəriyyələrlə izah edilir:

**1.** Kreativlik və intellektin əlaqəsizliyi (Uncorrelated Model)

Bu modelə görə kreativlik və intellekt bir-birindən asılı olmayan fərqli qabiliyyətlərdir. Yəni yüksək intellektə malik biri mütləq yüksək kreativliyə sahib olmaya bilər və əksinə.

**2.** Müəyyən intellekt səviyyəsi tələb edən kreativlik (Threshold Theory)

"Threshold Theory" adlanan bu nəzəriyyəyə görə, kreativliyin inkişafı üçün müəyyən bir intellekt səviyyəsi lazımdır. Bu səviyyə, ümumiyyətlə, IQ 120 olaraq qəbul edilir. Yəni IQ səviyyəsi 120-dən yuxarı olan insanlar arasında kreativlik və intellekt arasında daha az əlaqə var. Ancaq intellekt səviyyəsi bu həddən aşağı olduqda, kreativliklə intellekt arasında müsbət əlaqə müşahidə olunur [8].

**3.** İnteqrativ nəzəriyyə (Investment Theory of Creativity)

Robert Sternberg və Todd Lubartın təqdim etdiyi "Yaradıcılığın ivestisiya nəzəriyyəsi"nə ("Investment Theory of Creativity") görə, kreativlik intellekt, bilik, motivasiya, şəxsiyyət xüsusiyyətləri və ətraf mühit kimi bir çox faktorların birgə təsiri ilə yaranır. Bu nəzəriyyə iddia edir ki, intellekt kreativliyə təsir etsə də, yalnız intellekt özü təkbaşına kreativliyi təmin etmir. Yəni yaradıcı düşüncə üçün intellekt vacibdir, amma kifayət deyil [9].

**4.** Kreativlik və intellektin bir-birini tamamlaması

Bu yanaşmaya görə, kreativlik və intellekt bir-birini tamamlayır və hər ikisi fərqli problemlərin həllində əhəmiyyətli rol oynayır. Məsələn, kompleks problemlərdə fərd həm kreativ təfəkkür yolu ilə yeni həll yolları tapmağa, həm də intellektual düşüncə ilə həmin həll yollarını təhlil edib uyğun bir həll yoluna çatmağa çalışır. Ağıllı insanlar bu və ya digər qərarı verməzdən əvvəl, necə deyərlər, – yüz ölçüb bir biçirlər. Başqa sözlə, tələsmirlər, düşünürlər [2, s.55].

Məsələn, bir texnologiya şirkətinin mühəndisləri yeni bir məhsul dizayn edərkən, müxtəlif fərqli və hətta çılğın fikirlər ortaya atır. Lakin bu fikirlər irəli sürüldükdən sonra hər bir ideyanın real həyatda tətbiq oluna biləcəyi resurslar və zaman baxımından mümkün olub-olmadığı təhlil edilir. Bununla da yalnız praktik və faydalı ideyalar seçilərək həyata keçirilir [3, s. 25].

"Kiçikyaşlı məktəblilərdə kreativ bacarıqların formalaşdırılması yolları" adlı tədqiqat işinin aparılması prosesində biz də kreativ düşüncə və şagirdlərin akademik bilik səviyyələri arasında bir əlaqənin olub olmamasını araşdırdıq. Belə ki, tədqiqat işi ilə bağlı eksperiment keçirən zaman Bakı şəhəri 67 nömrəli tam orta məktəbin nəzarət qrup olaraq seçilmiş 3c sinif şagirdlərinin kreativliklə yanaşı məntiqi düşünmə qabiliyyətləri də ölçülmüşdür. Bunun üçün Raven testindən istifadə olunmuşdur. Qeyd edək ki, Raven testi 5-9 yaşlı uşaqlarda intellekt səviyyəsini öyrənmək üçün istifadə olunur. Test A, AB, və B seriyalarından ibarət olub, hər seriya 12 test tapşırığından ibarətdir. Hər doğru cavab 1 balla qiymətləndirilir.

Kreativ düşüncənin yoxlanılması üçün istifadə olunan metodlardan isə Varteqanın "dairələr" metodikası seçilmişdir. Bu metodika şagirdlərə təqdim edilən 20 dairədən ibarətdir. Uşaqlardan hər dairədən ayrıca istifadə etməklə onun daxilində və ya xaricində müxtəlif rəsmlər çəkmək tələb olunur. Metodika davamlılıq, mütəhərriklik, orijinallıq göstəricilərinə əsasən qiymətləndirilir. Şagirdlərin nəticələri hər üç göstərici üzrə təhlil edilərək, orta qiymət çıxarılmış və hər iki testin nəticələrinin müqayisəsi aşağıdakı diaqramda təsvir edilmişdir. Şagirdlərin adları yazılmadan sadəcə Ş1 (birinci şagird), Ş2 (ikinci şagird və.s) olaraq göstərilmişdir.




Şəkilə nəzər saldıqda Raven testindən ən yüksək nəticə göstərmiş 22-ci şagirdin Varteqa testinin nəticəsi o qədər də yüksək deyil. Varteqa testindən ən yüksək nəticə göstərən 10-cu şagird isə Raven testindən də nisbətən yüksək nəticə göstərmişdir. Raven testindən ən zəif nəticə göstərən 12-ci şagirdin Varteqa testinin nəticəsi isə orta səviyyədədir. Varteqa testindən ən zəif nəticə göstərən 1-ci şagirdin intellekt testinin nəticəsi isə yüksək səviyyədədir.

**Elmi nəticə**. Göründüyü kimi, bizim apardığımız kiçik tədqiqatda da hər iki testin orta hədlərində nisbətən uyğunluq müşahidə edilsə də, hər hansı bir göstəricinin yüksək həddində onlar arasında necə bir əlaqənin olduğunu söyləmək çətindir.

**İşin elmi yeniliyi.** Tədqiqatın nəticəsinə görə müəyyən olunmuşdur ki, bizim əldə etdiyimiz nəticələr "Müəyyən intellekt səviyyəsi tələb edən kreativlik (Threshold Theory)" nəzəriyyəsi və Türkiyyədə Feyzullah Şahinin apardığı tədqiqatın nəticələri ilə qismən uyğunluq təşkil edir. Yəni intellekt ilə kreativlik orta göstəricilərdə nisbətən düz mütənasib görünür. Lakin hər iki göstəricinin yüksək hədlərində bu mütənasiblik izlənmir. Bu baxımdan da problemlə bağlı daha dəqiq, daha əhatəli araşdırmanın aparılmasına ehtiyac görünür.

**İşin tətbiqi əhəmiyyəti.** Məqalədə təqdim edilən nəticələr mövzu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər. Belə ki, məqalədə göstərilən məlumatlardan gələcəkdə bu sahədə aparılan təqdiqatlar üçün istifadə edilə, məktəb təcrübəsində və metodiki vəsaitlərin hazırlanmasında faydalı ola bilər.

## Ədəbiyyat


1. Əlixanova, G.H. Təhsil konsepsiyasında təxəyyülün inkişaf mərhələsi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – c. 90, № 6, – 2023. – s.162-165.
2. Əmrəliyeva İ.B., Təhsilalanlarda tənqidi təfəkkürü inkişaf etdirməyin vacibliyi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. –c. 90, №3, –2023. –c. 54-56.
3. Quliyeva Ü, Tədris prosesində tənqidi düşünmə bacarığının əhəmiyyəti // Elmi iş, Beynəlxalq Elmi Jurnal. – c.18, № 10, – 2024. – s.22-28.
4. Əsgərova Y.B., İntellekt anlayışı və onun psixoloji mahiyyəti //Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – c. 90, №3, – 2023. – s.71-76
5. Karabey, Y, Yürümezoğlu K, Yaratıcılık ve üstün yetenekliliğin zeka kuramlari açısından değerlendirilmesi // Buca Eğitim fakültesi dergisi, 40, – 2015. – s.86-106
6. Şahin, F. Yaratıcılık-zeka ilişkisi: Yeni deliller. İlköğretim online, 13, №4, 2014. –s.1517-1530.
7. https://psixologiyainstitutu.az/2022/11/15/yaradiciliq-və-qabiliyyətlərin-psixoloji-problemləri/
8. https://journals.sagepub.com/doi/10.4219/jsge-2005-473
9. https://www.scirp.org/reference/referencespapers?referenceid=537671


**T.H.Alisoy**

**The Relationship between Intelligence and Creativity in Young Schoolchildren**

***Summary***

The article provides information about the concepts of intellect and creativity, explaining their importance. From a theoretical perspective, the commonalities and differences between intellect and creativity are explored. Some theories explain creativity as a component of intellect, while others describe it as an independent skill. There are also researchers who consider that intellect might be a part of creativity.

In addition to calling attraction existing research in this field, a small-scale study was conducted on this issue. Tests for both intellect and creativity were administered to a limited group of students (1 class), and the results were compared. The outcomes of the study are also reflected in the article.

***Key words:*** *intelligence, creativity, creative thinking, personality, problem solving*

**Т.Г.Алисой**

**Взаимосвязь между интеллектом и творчеством у младших школьников**

***Резюме***

В статье представлена информация о понятиях *интеллект* и *креативность*, а также разъяснена их сущность. С теоретической точки зрения рассмотрены как общие, так и различающиеся аспекты интеллекта и креативности. Некоторые теории трактуют креативность как составляющую интеллекта, в то время как другие рассматривают её как независимый навык. Есть также исследователи, утверждающие, что интеллект может быть частью креативности.

Помимо анализа исследований в этой области, нами было проведено небольшое исследование по данной проблеме. В рамках ограниченной группы учащихся (один класс) были проведены тесты на интеллект и креативность с целью сравнения результатов. Результаты проведённого исследования также отражены в статье.

***Ключевые слова:*** *интеллект, креативность, творческое мышление, личность, решение проблем*

*Rəyçi: ped.e.d., prof. İ.Cəbrayılov*

*Redaksiyaya daxil olub: 06.11.2024*